# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI 55-56 (13.425)
CÜMƏ 18 İYUL 2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივი-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİR: "ƏGƏR SEÇİM SÜLH VƏ VİZA ARASINDA OLARSA, BİZ SÜLHÜ SEÇƏCƏYİK"



***Baş nazir İrakli Kobaxidze Avropa Komissiyasının Maka Boçorişviliyə göndərdiyi və hökumətdən 8 tövsiyənin yerinə yetirilməsini tələb edən məktuba münasibət bildirib.*** O, məsələnin Gürcüstan cəmiyyətinə "ya sülh və sabitlik, ya da viza liberallaşdırılması" şəklində təqdim edildiyini qeyd edib və bu halda prioritetin sülh və sabitlik olduğunu vurğulayıb. Baş nazirin sözlərinə görə, Avropaya vizayla və ya vizasız getmək ekzistensial məsələ deyil, lakin Gürcüstanda sabitliyin və sülhün pozulması cəhdi artıq milli təhlükəsizlik məsələsidir: *"Əgər məsələ bu şəkildə qoyulursa – ya sülh və sabitlik, ya da vizasız rejim – biz təbii ki, sülhə və sabitliyə üstünlük verəcəyik. Bu, gürcü xalqının seçimidir",* – deyə Kobaxidze jurnalistlərə bildirib. O əlavə edib ki, Avropa İttifaqı Gürcüstan hökumətinə bəzi qanunları qəbul etməyi qadağan etməklə ölkənin daxili sabitliyinə təhdid yaradır: *"Şəffaflıq qanunlarının qəbuluna mane olmaq o deməkdir ki, xarici qüvvələrin Gürcüstanda inqilabi proseslərə müdaxiləsinə şərait yaratmaq istəyirlər. Bizdən tələb olunur ki, belə qanunları qəbul etməyək. Bu, birbaşa təhlükədir."* Baş nazir qeyd edib ki, ölkədə qəbul edilən bütün qanunvericı dəyişikliklər insan hüquqlarına zidd deyil və milli maraqlara xidmət edir: *"Qanunlarımız ailə dəyərlərinin qorunması, azyaşlıların müdafiəsi və xarici təsirlərin şəffaflaşdırılması məqsədi daşıyır. Əgər kimsə Gürcüstanda inqilabi fəaliyyət maliyyələşdirmək istəyirsə, bunu açıq şəkildə etməlidir."* İrakli Kobaxidze Gürcüstanın Avropa İttifaqına inteqrasiyasının tərəfdarı olduğunu vurğulasa da, Aİ-ni Sovet İttifaqı ilə müqayisə edərək, Brüsselin Moskvaya bənzəməməli olduğunu bildirib: *"Sovet İttifaqında direktivlər Moskvadan gəlirdi, yerinə yetirilməsə, cəzalandırılırdın. Brüssel bu yolla getməməlidir. Gürcü xalqını şantaj etmək düzgün deyil – xalq qanlı siyasi qüvvəni yenidən hakimiyyətə gətirmədiyinə görə cəzalandırılmamalıdır."* Sonda Kobaxidze bildirib ki, hökumət sağlam müzakirələrə açıqdır, lakin Gürcüstanın sülh və sabitlik yolundan dönməyə niyyəti yoxdur.

## M. KAVELAŞVİLİ: "GÜRCÜSTAN ƏRAZİ BÜTÖVLÜYÜNƏ TÜRKİYƏNİN VERDİYİ DƏSTƏYİ YÜKSƏK QİYMƏTLƏNDİRİR"



***Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlıq daha da güclənir.*** Bunu Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Türkiyənin ticarət naziri Ömər Bolat ilə görüşündə deyib. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq, iqtisadi əməkdaşlıq və regional layihələr ətrafında fikir mübadiləsi aparılıb. Mixeil Kavelaşvili bildirib ki, Gürcüstan Türkiyənin suverenlik və ərazi bütövlüyünə verdiyi sarsılmaz dəstəyi yüksək qiymətləndirir. Prezident əlavə edib ki, qarşılıqlı etimada, milli maraqlara, hörmətə əsaslanan münasibətlər iki ölkə arasında strateji əməkdaşlığı daha da möhkəmləndirir. "Regionda həyata keçirilən layihələr – enerji, nəqliyyat və infrastruktur sahəsindəki təşəbbüslər ölkələrimiz arasında səmərəli tərəfdaşlığın və davamlı inkişafın göstəricisidir. İnanıram ki, bu əməkdaşlıq daha yüksək səviyyəyə çatacaq", – deyə Prezident qeyd edib. Görüşdə Gürcüstanın Cənubi Qafqazda sülh, sabitlik və əməkdaşlıq təşəbbüslərinə sadiqliyi də vurğulanıb.

## BƏXTİYAR VAHABZADƏNİN 100 İLLİYİNƏ HƏSR OLUNAN KİTAB GÜRCÜ DİLİNDƏ NƏŞR OLUNUB



***Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illiyinə həsr olunan kitab gürcü dilində nəşr olunub.*** Kitabın müəllifi filologiya üzrə fəlsəfə doktoru Aida Mirzəyevadır. Kitab Azərbaycan və Gürcüstan arasında mədəni əlaqələrin daha da möhkəmləndirilməsi, dahi söz ustadının poeziyasındakı milli ruhun gürcü oxucusuna tanıdılması məqsədilə hazırlanıb. Monoqrafiya Tbilisidə "Universal" nəşriyyatı tərəfindən yayımlanıb və 191 səhifədən ibarətdir. Elmi redaktoru filologiya elmləri doktoru, professor Almaz Əliqızı, rəyçiləri, filologiya elmləri doktoru, professor Vaqif Sultanlı və filologiya üzrə fəlsəfə doktoru,dosent İradə Rəhmanovadır. Monoqrafiyada Bəxtiyar Vahabzadənin poeziyasında istiqlal düşüncəsi, milli ruh, vətən sevgisi və azadlıq ideyalarının poetik və fəlsəfi təhlilinə yer verilir. "Bəxtiyar Vahabzadə poeziyasında istiqlal ideyası" adlı elmi monoqrafiya artıq gürcü dilində də nəşr olunub. Bu tədqiqat əsəri Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin 100 illiyinə həsr olunub və onun poeziyasında milli istiqlal düşüncəsinin bədii təcəssümünün elmi müstəvidə araşdırılmasına xidmət edir.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİNİ QƏBUL EDİB



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.***

Trend xəbər verir ki, Prezident İlham Əliyev Mariam Kvrivişviliyə nazir təyin olunması münasibətilə təbriklərini çatdıraraq, onun vəzifəsinin icrasına başlamasından qısa müddət sonra Azərbaycana səfərini sıx əməkdaşlığın göstəricisi kimi qiymətləndirib.

Qonaqpərvərliyə və təbriklərə görə minnətdarlığını bildirən Mariam Kvrivişvili dövlət başçısı ilə görüşdən şərəf hissi keçirdiyini deyib.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İrakli Kobaxidzeyə çatdırmağı xahiş edib.

Azərbaycan Prezidenti Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra İrakli Kobaxidzenin bu ilin yanvarında ilk xarici səfərini Azərbaycana etməsini məmnunluqla xatırlayaraq, bunun Azərbaycanla Gürcüstan arasında dostluğun və qardaşlığın nümunəsi olduğunu deyib.

Prezident İlham Əliyevin qlobal lider olduğunu vurğulayan Mariam Kvrivişvili dövlət başçısının Gürcüstanda dost kimi qəbul olunduğunu qeyd edib.

Söhbət zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli əlaqələrimizin geniş gündəliyinin olduğu vurğulanıb, Azərbaycanla Gürcüstan arasında enerji və nəqliyyat sahələrində qurulmuş əməkdaşlığın və həyata keçirilən birgə layihələrin yalnız ölkələrimiz deyil, daha geniş region üçün strateji əhəmiyyət kəsb etdiyi qeyd olunub. Rabitə, enerji, ticarət, sərmayələr və digər sahələrdə ikitərəfli və çoxtərəfli formatda daha sıx əməkdaşlıq həyata keçirilməsinin önəminə toxunularaq, müxtəlif istiqamətlərdə münasibətlərimizin genişlənəcəyinə ümidvarlıq bildirilib.

Görüşdə Azərbaycanın Gürcüstanın əsas ticarət tərəfdaşı olduğu vurğulanıb, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın mövcudluğuna toxunulub, iqtisadiyyatın müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## KVEMO KARTLİYƏ YENİ PROKUROR TƏYİN EDİLİB



***Davit Çxartişvili Kvemo Kartliyə yeni prokuror təyin edilib.*** Bu barədə Baş Prokurorluq məlumat yayıb. Bildirilir ki, Davit Çxartişvili əvvəllər Şida Kartli və Mtsxeta-Mtianeti rayon prokuroru vəzifələrində çalışıb. Bundan başqa Tbilisi Prokurorluğuna, Şida Kartli və Mtsxeta-Mtianeti Regional Prokurorluqlarının əməkdaşlarına da yeni rəhbərlər təyin edilib.

## UKRAYNADA YENİ HÖKUMƏT QURULACAQ

***Ukrayna prezidenti Volodimer Zelenski Ukrayna Nazirlər Kabinetində artıq bu həftədən dəyişikliyin edilməsi ilə bağlı qərar qəbul edib.***

Bu barədə RBK-Ukraina məlumat yayıb.

Məlumata görə, yeni hökumətə hal-hazırda baş nazir müavini vəzifəsini tutan Yuliya Sviridenko başçılıq edəcək. Hazırki baş nazir Denis Şmıqal isə Rüstəm Umerovun əvəzinə müdafiə naziri postuna gətirilə bilər. Sonuncunun isə ABŞ-yə səfir göndəriləcəyi ehtimal edilir.

Agentliyin öz mənbələrinə istinadən məlumatına görə, yeni hökumətdə bəzi nazirliklər birləşdiriləcək və ümumilikdə səlahiyyətlərin yeni bölgüsü həyata keçiriləcək.

22 İYUL AZƏRBAYCANDA MƏTBUAT GÜNÜDÜR

# RUHUMUZU SEVİNDİRƏN TARİX



Azərbaycan Milli Mətbuatının bünövrəsini Azərbaycanın görkəmli ziyalısı Həsən bəy Zərdabi (Həsən bəy Məlikov – 28 iyun 1837-ci ildə Zərdabın Göyçay qəzasında anadan olmuş – 28 noyabr 1907-ci il Bakıda vəfat etmişdir) tərəfindən 22 iyul 1875-ci ildə "Əkinçi" qəzetinin ilk sayının nəşr olunma tarixi Azərbaycan Milli Mətbuat günü kimi qəbul olunub və qeyd edilir. İlk qəzetin nəşr olunmasından 150 il keçir. Hal-hazırda zəngin ənənələrə malik olan Azərbaycan Milli Mətbuatı mürəkkəb, lakin şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə tanınan, müasir informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanlardan səmərəli istifadə edərək qlobal informasiya məkanına çevrilmişdir.

Bir az tarixə nəzər salaq. Azərbaycandilli çap qəzetləri Tiflis ədəbi mühiti ilə bağlıdır. Tbilisi o dövrlərdə Zaqafqaziyanın mərkəzi şəhəri olduğu üçün Azərbaycan ədiblərinin, yazarlarının, ümumiyyətlə qələm sahiblərinin coğrafi bir məkanına çevrilmişdir. Tiflis Qafqazın mədəniyyət beşiyi olaraq, o dövrdə burada mədəniyyət, incəsənət, ədəbiyyat və kütləvi informasiya vasitəsi kimi mətbuat üçün böyük imkanlar və şərait yaradılırdı.

Bu beynəlxalq şəhərdə müxtəlif millətlərin nümayəndələri yaşadığı üçün, burada müxtəlif dillərdə məktəblər açılır, teatrlar yaradılır, milli mətbuat nümunələri olan kütləvi informasiya vasitələri və kitablar nəşr olunurdu. Azərbaycan dilində yazmaq istəyən, millətin dərd-sərini, cəmiyyətdə bu və ya digər çatışmazlıqları əhaliyə çatdıran, öz fikirlərini bölüşmək və ümumiyyətlə insanları maarifləndirmək istəyən yazıçı və jurnalistlərin Azərbaycan dilində yazıb yaratmaq arzusundan Azərbaycandilli qəzetin nəşr olunma zərurəti yaranmışdır. Bununla əlaqədar olaraq 1832-ci ildə Tiflisdə "Tiflisskiye vedomosti" Azərbaycan dilində nəşr olunmağa başlayıb. Bir qədər sonra naməlum səbəbdən nəşrini dayandıran qəzet 1832-ci ildə "Tiflis əxbarı" adı ilə nəşr olunmağa başlayıb, Güney Qafqazda, İran və Türkiyədə yayınlanıb. 1838-ci ildə, "Zaqafqazskiy vestnik" adlı rusca qəzet nəşr olunmağa başlayıb və sonra bu qəzet gürcü və Azərbaycan dillərində nəşr olunub. Azərbaycan dilində nəşr olunan qəzet "Qafqazın bu tərəfinin xəbəri" (1845) adlanıb. Həmin qəzetin nəşri 1846-cı ildən naməlum səbəbdən dayandırılıb. Azərbaycanlı ziyalıların rus dilində başlamış "Qafqaz" qəzetində azərbaycanlı şair və yazıçıların əsərlərinə, məqalələrinə, Azərbaycan ədəbiyyat tarixində görkəmli yer tutan şəxslərin yaradıcılığına geniş yer ayrılmasına baxmayaraq, bu millətin daxili ruhuna sakitlik, rahatlıq gətirmirdi və sadəcə olaraq o dövrün ziyalıları müstəqil Azərbaycandilli qəzetin zəruriliyini anlamışdılar. O dövrdə bu lazımi zərurəti görən və giymətləndirən zamanının görkəmli maarifpərvər jurnalisti, publisist Həsən bəy Zərdabi olmuşdur. O, ana dilində qəzetə ehtiyac olduğunu dərk edərək hökumətə müraciət edib. Bu məqsədlə o, İstanbuldan hürufat gətirib və nəhayət böyük zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olub. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsasını qoyub və bu Azərbaycanda böyük əlamətdar bir tarixə çevirilib. 1877-ci il sentyabrın 29-na qədər, yəni cəmi iki il fəaliyyət göstərən qəzetin cəmi 56 sayı nəşr olunaraq maarifçi ideyaların carçısı olmuş, cəhalət və xurafata qarşı kəskin məqalələr dərc etmişdir, milli özünüdərkin, ictimai - siyasi və bədii fikirlərin inkişafına, xalqımızın milli oyanışına, milli birliyin möhkəmlənməsinə, müstəqil jurnalist nəslin yetişməsinə önəmli töhfə vermişdir.

Hal-hazırda Azərbaycan mediası müasir cəmiyyət quruculuğunda, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində demokratik özünüdərkin, özünüidarənin inkişafında, milli – mənəvi dəyərlərin qorunub saxlanılması və təbliğində təsirli, böyük rol oynayaraq qlobal informasiya məkanında əhatə dairəsini genişləndirərək zamanın tələbatına uyğun olaraq öz fəaliyyətlərini davam etdirir. Azərbaycan mediasinin operativliyi, vətəndaşlara (cəmiyyətə) düzgün və vaxtında məlumat ötürməsi, dövlətin və cəmiyyətin informasiya təminatında həlledici rol oynayaraq, Vətən Müharibəsi dövründə əsl vətənpərvərlik, həmrəylik nümunəsi göstərən Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdır. Vətən Müharibəsi dövründə və sonra zəfər çalmış milli ordunun əsgər və zabitlərinin rəşadəti, qəhrəmanlığı ilə bağlı tarixi zəngin salnamə yaratmışdır.

Azərbaycan Milli Mətbuat Gününün 150 illik yubiley ərəfəsində "Əkinçi" qəzetinin xələfi sayılan, bir əsrdən çox, yəni 104 ildir mütəmadi olaraq nəşr olunan "Gürcüstan" qəzetinin qısa olaraq tarixinə nəzər salsaq yerinə düşərdi. Axı bu qəzet Azərbaycan Milli Mətbuatının sağ qoludur. "Gürcüstan" qəzetinin şərəfli tarixində Tbilisi şəhərində 100 illik yubileyini yüksək səviyyədə təntənəli surətdə qeyd etmək qururverici bir tarixi hadisə idi. XX əsrin əvvəlində Qafqazda gedən ictimai-siyasi proseslər nəticəsində burada yaşayan millətlərin müstəqillik qazandığı bir dövrdə təzə yaranmış ölkələrin sərhədlərinin müəyyənləşməsi nəticəsində bu və ya digər millətlərin nümayəndələrinə təzə yaranmış ölkələrin ərazisində yaşamaq qismət olur. Gürcüstanda yaşayan Azərbaycanlı ziyalılar insanlara ana dilində yazmaq, öz fikirlərini bölüşmək, dünyada gedən ictimai-siyasi prosesləri məlumatlandırmaq və ümumiyyətlə, milləti maarifləndirmək istəyindən Azərbaycandilli mətbuata zəruriyyət hiss olunurdu.

Zamanında, millətin mətbuata ehtiyacını hiss edən və ziyalıların istəyini yerinə yetirmək, iti qələm sahibi maarifpərvər ziyalı Məmmədəli Nasir (Məmmədəli Nasir Hacı Məhəmmədzadə 1899-cu il, İrəvan şəhəri - 1982-ci il 14 aprel, Bakı), 30 mart 1921-ci ildə Azərbaycan dilində "Kommunist" adlı qəzetin nəşr olunmasına nail olmuşdur. Bu qəzetin cəmi 19 sayı işıq üzü görüb. Sonralar qəzetin adı "Yeni fikir" (21 yanvar 1922- ci il - 31 may 1927-ci il, ümumi 1397 sayı), "Yeni kənd" (30 iyul 1927-ci il - 23 fevral 1939-cu il), "Sovet Gürcüstanı" (24 fevral 1939-cu il, -noyabr 1991-ci il). Gürcüstan müstəqillik qazandıqdan sonra 1991-ci ilin noyabr ayından qəzet "Gürcüstan" adı ilə nəşr olunub və bu gün də nəşri davam edilir.

Gürcüstan azərbaycanlılarının "Gürcüstan" adlı qəzetinin bir əsrdən çox mütəmadi olaraq nəşr olunması, millətimizin keçmiş dövrlərdə millətinə, xalqına yaşadığı ölkənin dövlətinə və dövlətçiliyinə layiqincə xidmət etməsi, azərbaycanlı olaraq Azərbaycan və Gürcüstan dövlətləri arasında əsrlərdən bəri qardaşlıq, dostluq, mehriban və etibarlı qonşuluq ənənələrinin xoş niyyətlə icra olunması və zamanın tələbatına uyğun olaraq, strateji əməkdaşlıq əlaqələrinin yaranmasını dəstəkləyərək, gələcəyə nikbin baxmasından irəli gəlir.

Azərbaycan Milli Mətbuat Günü Gürcüstan Azərbaycanlıları üçün də ruhumuzu sevindirən tarixi bir gündür. 22 iyul 2025-ci il tarixində Azərbaycan Milli Mətbuat Gününün 150 illik yubileyi təntənəli surətdə keçiriləcək. Biz Gürcüstan Azərbaycanlıları bu əlamətdar günün qeyd olunması ilə əlaqədər, sevinirik və qürur hissi keçiririk. "Gürcüstan" qəzetinin əməkdaşları, oxucuları adından Azərbaycan Respublikası, Media İnkişaf Agentliyi və Azərbaycan Mətbuat Şurasının rəhbərliyi və əməkdaşlarını və ümumiyyətlə, media işçilərini və Azərbaycan xalqını Azərbaycan Milli Mətbuat Gününün 150 İllik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirik. Azərbaycan dövlətinin gündən - günə çiçəklənərək inkişaf etməsi, Azərbaycan xalqının xoş gələcəyi naminə gördükləri işlərdə müvəffəqiyyətlər arzulayırıq!

**Xaləddin Yolçuyev,**
**"Gürcüstan" qəzetinin**
**Baş redaktoru**

İQTİSADİYYAT

# PARLAMENTİN SƏDRİ VƏ KƏND TƏSƏRRÜFATI NAZİRİ BUĞDA YIĞIMI İLƏ TANIŞ OLUBLAR

***Parlamentin sədri Şalva Papuaşvili və Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Davit Sonqulaşvili Kaxetinin Dedoplitskaro bələdiyyəsində buğda yığımının gedişi ilə yerində tanış olublar.***

Bu barədə Nazirlik məlumat yayıb.

Nazir Davit Sonqulaşvili bildirib ki, son illərdə həyata keçirilən dövlət siyasəti nəticəsində buğda istehsalında sabitlik müşahidə olunur.

D. Sonqulaşvili həmçinin qeyd edib ki, orta məhsuldarlıq göstəriciləri artıb, özünütəminetmə əmsalı yaxşılaşıb və fermerlər müasir kənd təsərrüfatı texnikası ilə təmin olunublar:

*"Fermerlərin ehtiyaclarına uyğun texnikanın yenilənməsi proqramını davam etdiririk. Məqsədimiz buğda istehsalında mövcud potensialdan tam istifadə etmək və özünütəminetmə səviyyəsini mərhələli şəkildə artırmaqdır",* – deyə Sonqulaşvili bildirib.

Rəsmi məlumatlara əsasən, 2025-ci ildə ölkədə buğda istehsalının həcmi 200 000 tona yaxın olacaq. 11 iyul tarixinə olan göstəricilərə görə, buğda 15 323 hektar, arpa isə 25 554 hektar sahədə yığılıb. Hazırda buğda emalı müəssisələri ümumilikdə 1 364 ton buğda alıb, məhsulun orta satış qiyməti isə 70 tetri təşkil edir.

## Sitat guşəsi



"Bu, Avropa Parlamentinin Gürcüstanla bağlı qəbul etdiyi yeddinci və tamamilə utancverici qətnamədir. Hesab edirəm ki, bu məsuliyyət yalnız Avropa Parlamentinin deyil, həm də bütövlükdə Avropa İttifaqının bürokratiyasının üzərinə düşür.".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Bilmirəm, polisə təpik atmaq, partlayıcı vasitələr atmaq və ya parlamenti yandırmaq dinc aksiyadır? Mən bu on yeddi ölkəyə bir şey deyəcəm: öz ölkələrinə baxıb görsələr ki, kimsə onların polisini təpikləyir, parlamentlərini yandırır, bütün bunlara dözüb reaksiya göstərməyəcəklərmi?! Bu, ikili standart deyilmi?!

**Şalva Papuaşvili,**
**Gürcüstan Parlamentinin sədri.**



"Putindən məyusam. Düşünürdüm ki, artıq razılaşa bilərik, amma bu, baş vermədi. O, çoxlarını aldadıb, amma məni aldada bilməz".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



Biz xırda siyasətlə məşğul olmuruq, biz ölkə siyasəti aparırıq. Ölkəmizin qarşısında yeni bir dövrün qapıları açılır. Türkiyə Əsri idealımızı addım-addım gerçəkləşdiririk. Terror zəncirini qırmağın astanasındayıq. Yarım əsrlik səbrimiz artıq öz bəhrəsini verir".

**R.T. Ərdoğan,**
**Türkiyənin Prezidenti.**




"Biz artıq media islahatlarının ilkin nəticələri barədə danışa və əminliklə vurğulaya bilərik ki, mediamızın işində ciddi keyfiyyət dəyişikliyi özünü göstərməkdədir. Düşünürük ki, media islahatlarının böyük töhfələrindən biri də dövlətin gənclərin media sahəsinə marağının formalaşması prosesini dəstəkləməsidir"

**Əhməd İsmayılov,**
**Azərbaycan Media İnkişafı Agentliyinin**
**icraçı direktoru.**



"Biz bunu gördük. Biz dedik ki, bir il sonra onların nüvə bombası olacaq və ondan istifadə edəcəklər. Digər nüvə güclərindən fərqli olaraq, əslində ondan istifadə edib bizi Yer üzündən siləcəklər"

**Benyamin Netanyahu,**
**İsrailin Baş naziri .**

## REGİON XƏBƏRLƏRİ

### Kaxeti: DAXİLİ İŞLƏR NAZİRİ BÖLGƏYƏ SƏFƏR EDİB



*Daxili İşlər naziri Qela Qeladze Kaxeti bölgəsinə səfəri çərçivəsində bir sıra işgüzar görüşlər keçirib.*

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, nazir Kaxeti Polis Departamentinin rəhbər şəxsləri və əməkdaşları ilə görüşərək bölgədə cinayətkarlıqla mübarizə və polis tərəfindən həyata keçirilən qabaqlayıcı tədbirlər barədə məlumat alıb.

Görüşdə bölgədəki cinayət statistikası və cinayətlərin açılma səviyyəsi müzakirə olunub.

Səfər çərçivəsində nazir bölgədə yerləşən nazirliyin digər struktur bölmələrini də ziyarət edib, əməkdaşlarla söhbət apararaq onların iş şəraiti, texniki təminatı və avadanlıqları ilə tanış olub.

Qela Qeladze əməkdaşlara göstərdikləri səmərəli fəaliyyətə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, Kaxeti bölgəsində keçirilən görüşlərdə Daxili İşlər nazirinin birinci müavini Roland Mesxi, müavinlər Mariam Tabatadze, Şalva Tadumadze, Qiorqi Butxuzi və Aleksandre Daraxvelidze də iştirak ediblər.

### Rustavi: GƏNCLƏRİN "ŞƏHƏRİNİ İDARƏ ET" LAYİHƏSİNİN NÖVBƏTİ MƏRHƏLƏSİ BAŞLAYIB

*Rustavidən olan gəncləri bələdiyyənin fəaliyyətinə cəlb etmək məqsədi daşıyan layihə artıq dördüncü ildir ki, həyata keçirilir.*



Proqrama daxil olmaq onlayn qeydiyyat yolu ilə həyata keçirilir və dövlət qulluğunun xüsusiyyətləri ilə tanış olmaqla yanaşı, gənclərə bələdiyyədə işlə təmin olunmaq imkanı yaradır.

Mer N. Latsabidzenin bildirdiyinə görə, layihədə iştirak edən 40-a yaxın gənc artıq Rustavi şəhər meriyasının islahat, gənclər, mədəniyyət və yaşıllaşdırma şöbələrində işləyir.

### Qardabani: İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN BƏHS EDƏN "İSTİQAMƏT ŞUŞADIR" KİTABI TƏQDİM EDİLİB



*Qardabani Bələdiyyəsinin Nəzərli kənd ictimai məktəbində Mustafa Sədioğlunun ikinci Qarabağ müharibəsindən bəhs edən "İstiqamət Şuşadır" kitabının təqdimatı keçirilib.*

Kitabda Azərbaycan xalqının torpaqlarının işğaldan azad olunması istiqamətindəki birgə mübarizəsindən, qəhrəman oğul və qızların şücaətindən, şəhidlərin qanı, canı bahasına əldə olunan qələbədə Gürcüstandan olan azərbaycanlıların rolundan bəhs olunur.

Kitabda əslən Qardabani rayonunun Nəzərli kəndindən olan BakuTV-nin əməkdaşı Yelmar Məmmədlinin Şuşanın azad edilməsindəki qəhrəmanlığı xüsusi qeyd olunub.

Çıxış edənlər "İstiqamət Şuşadır" adlı yeni nəşrin gənclərin vətənpərvər ruhda böyüməlarinə böyük töhfə verəcəyinə əminlik ifadə ediblər.

Müəllif M. Sədioğlu deyib ki, Y. Məmmədlinin qəhrəmanlığı haqqında yazdıqları onun döyüş yoldaşlarından aldığı müsahibələrə əsaslanıb. Döyüş yoldaşları jurnalistikadan birbaşa döyüşə atılan Y. Məmmədlinin əsl vətənpərvər və qəhrəman olduğunu xüsusi qeyd ediblər.

Bildirilib ki, onun qəhrəmanlığı Ali Baş Komandan Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilib və o, bir neçə medalla təltif olunub.

Tədbirdə ictimaiyyət nümayəndələri, ziyalılar, eləcə də Azərbaycandan gəlmiş qonaqlar iştirak ediblər.

### Marneuli: YENİ MƏKTƏBLƏR TİKİLİR




*Marneuli Bələdiyyəsində beş yeni ictimai məktəbin tikinti işləri fəal şəkildə davam edir*

Marneuli Bələdiyyəsinin İmir, Ağaməmmədli, Böyük Bəylər, Ağkörpü və Alget kəndlərində beş yeni ictimai məktəbin tikintisi intensiv şəkildə davam edir.

Tikinti işləri müasir standartlara tam cavab verir və xüsusi təhsilə ehtiyacı olan şəxslər üçün nəzərdə tutulan uyğunlaşdırılmış infrastrukturla təmin edilir. Bu isə öz növbəsində, təhsilin həm əlçatanlığını, həm də keyfiyyətini artıraraq ümumi inkişaf prosesinə mühüm töhfə verir.

Layihələr tam şəkildə Gürcüstanın dövlət büdcəsindən maliyyələşir və onların ümumi dəyəri 39,4 milyon lari təşkil edir.

## BEYNƏLXALQ HƏYAT

### ABŞ DÖVLƏT DEPARTAMENTİNDƏN ƏBU-DABİ GÖRÜŞÜNƏ REAKSİYA




*ABŞ Azərbaycan və Ermənistanın sülh prosesinin irəliləməsini istiqamətində davam edən səylərini dəstəkləyir.*

Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat katibi Temmi Bryus mətbuat konfransında bildirib.

*"Biz Cənubi Qafqazda sülh və sabitliyin təşviqi istiqamətində səyləri dəstəkləyirik", - deyə o, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında bu gün Əbu-Dabidə baş tutan görüşlə bağlı sualı cavablandırarkən bildirib.*

*O, əlavə edib ki, Vaşinqton KİV - lərdə dərc olunan müvafiq xəbərlərini izləyir: "Hazırda bizim paylaşacaq əlavə məlumatımız yoxdur".*

Temmi Bryus indiki Amerika administrasiyasının mövqeyini də qeyd edib.

*"Bildiyiniz kimi, prezident Tramp və dövlət katibi Rubionun yanaşması öz sözünü deyir. Prezidentin Nazirlər Kabinetinin bu yaxınlarda keçirilən iclasında söylədiyi fikirlər aydın oldu: Bu administrasiya sülhə sadiqdir",* - deyə o bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş konstruktiv atmosferdə keçib. Sülh gündəliyinin mühüm istiqamətləri - sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh sazişinin bağlanması ilə bağlı çox ciddi və məzmunlu müzakirələr aparılıb.

Bu danışıqların müxtəlif işçi qrupları formatında və daha yüksək səviyyələrdə davam etdirilməsi üçün ümumi razılıqlar əldə olunub.

### TÜRKİYƏDƏ TARİXİ GÜN - 41 İLLİK BƏLADAN QURTULUŞ

*Türkiyədə "Terrorsuz Türkiyə" prosesində yeni və tarixi mərhələyə qədəm qoyulub.*

MHP lideri Dövlət Bağçalının çağırışı və PKK lideri Abdullah Öcalanın təşkilatın tərksilah olunması ilə bağlı açıqlamasından sonra, terror təşkilatı bu gündən silahı yerə qoymağa başlayır.

Milli Kəşfiyyat Təşkilatı (MİT) və Türkiyə Silahlı Qüvvələrinin (TSK) nəzarəti altında baş tutacaq tərksilah prosesinin 3-4 ay ərzində tamamlanacağı gözlənilir. Silahların təhvil verilməsi və məhv olunması mərhələli şəkildə sənədləşdiriləcək və izlənəcək. Prosesin şəffaf keçməsi üçün xüsusi yoxlama mexanizmi yaradılıb.

İlk mərasim Şimali İraqda - Süleymaniyyə kəndi ətrafında Ankara, Bağdad və Ərbilin koordinasiyası ilə həyata keçiriləcək. Təhlükəsizlik səbəbilə tədbirin yeri açıqlanmayacaq və canlı yayım olmayacaq.

PKK üzvləri tədricən təyin olunmuş mərkəzlərə silah təhvil verəcək və qeydə alınacaqlar. Qeydiyyatdan keçən şəxslər arasında cinayətdə əli olmayanlar istədikləri halda sərbəst şəkildə Türkiyəyə qayıda biləcək və onlara qarşı heç bir hüquqi təqib aparılmayacaq.

Eyni zamanda, təşkilatın logistik anbarları və düşərgələri də ləğv olunacaq. Prosesin məqsədi - 41 illik terror kabusuna son qoymaq və Türkiyəni sülhə bir addım daha yaxınlaşdırmaqdır.

### İSRAİLİN KEÇMİŞ MÜDAFİƏ NAZİRİ XAMENEİYƏ XƏBƏRDARLIQ MƏKTUBU GÖNDƏRİB

***Sizin seçim imkanlarınız daralır. Hələ də vaxtınız var. Amma elə çox qalmayıb.***

Bunu İsrailin sabiq müdafiə naziri, general Yoav Qallant İranın ali lideri Ayətullah Əli Xameneiyə ünvanladığı məktubda bildirib.

O, Əli Xameneyinin hər addımını təqib etdiyini və ona başqa gizli nüvə proqramına başlaya bilməyəcəyi barədə xəbərdarlıq edib.

*"Nüvə proqramları insanlar, qurğular və koordinasiya tələb edir. Siz öz proqramınızı analoq dövründə qurmusunuz. Bu gün isə peyklər, kibercasusluq vasitələri, insan mənbələri və məlumat analitikası əvvəllər gizli qalan hər şeyi üzə çıxarır. Hər keçən ay bu fərq daha da böyüyür. Bizim biliklərimiz dərinləşir. Hədəf siyahımız genişlənir. Sizin seçim imkanlarınız isə daralır. Hələ də vaxtınız var. Amma çox deyil",* - deyə keçmiş nazir yazıb.



O, İranın ali liderini nüvə silahını bərpa edəcəkləri təqdirdə bunun Tehran üçün hansı nəticələrə yol açacağını da açıqlayıb.

*"Nüvə silahı əldə etməyə davam edəcəksiniz? Həm də açıq şəkildə, müdafiəsiz, məhdud hücum qabiliyyəti ilə? Biz bunu biləcəyik. Qarşısını alacağıq. Və bunun ağır bədəlini ödəyəcəksiniz. Yoxsa, konvensional silah arsenalınızı yenidən qurmağa çalışacaqsınız? Bilə-bilə ki, bu, onilliklər çəkəcək? Biz bunu ləngidəcəyik, sabotaj edəcəyik və yenidən dağıdacağıq.*

*Sərhədinizdən min kilometrlərlə uzaqda yerləşən, kiçik, lakin qətiyyətli bir ölkəyə qarşı müharibədən əl çəkib, nəhayət, öz xalqınızın rifahı və gələcəyi ilə məşğul olacaqsınız. Amma əgər bir daha səhv seçim etsəniz — biz orada olacağıq. Sizi gözləyəcəyik",* - deyə Yoav Qallant yazıb.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • sak@sak.ge

"SAKARTVELOS RESPUBLİKA"

14 iyul 2025-ci il

## Universitetlərdə gürcü dilinin tədrisi bərpa ediləcək

Təhsil, Elm və Gənclər naziri Qivi Mikanadze və onun müavini Zviad Qabisonianın rəhbərliyi ilə universitetlərdə gürcü dilinin tədrisinin bərpa edilməsi üçün yaradılmış komissiyanın tələbələrə dövlət dilinin tədrisi məqsədilə xüsusi kursun hazırlanmasının müzakirə edildiyi ilk iclası keçirilib.

Təhsil və Elm Nazirliyinin məlumatına görə, nazir əməkdaşlığa görə komissiya üzvlərinə təşəkkür edib, universitetlərdə gürcü dilinin tədrisinin bərpasının vacibliyi haqda danışıb.

"Gürcüstan parlamenti yaz sessiyasında bakalavr pilləsində gürcü dilinin tədrisinin bərpası ilə bağlı tarixi qərar qəbul edib. Bu son dərəcə mühüm təşəbbüsdür. Şadam ki, biz birgə səylərlə bu günə qədər gəlib çatmışıq və indi çox mühüm mərhələdəyik. Maraqlıdır ki, müvəqqəti işğal olunmuş Abxaziyanın Gürcüstanın yurisdiksiyasına qaytarılmasından sonra yuxarıda qeyd olunan dəyişikliklər abxaz dilinə də şamil ediləcək, çünki Konstitusiyaya və mövcud qanunvericiliyə əsasən, Abxaziya ərazisində Gürcüstanda gürcü dili ilə yanaşı, abxaz dili də dövlət dili kimi tanınır. Bu, bir daha dövlətin abxaz dilinin möhkəmlənməsinə qayğı göstərmək və ona maksimum kömək etmək üçün siyasi baxışından xəbər verir.

Biz universitetlərlə birlikdə gürcü dilinin bir fənn kimi bakalavriat səviyyəsində tədris prosesinə inteqrasiyası və onun ən yüksək standartlarda tədrisini təmin etmək üçün fəal işləyəcəyik", - deyə Qivi Mikanadze bildirib.

Nazir həmçinin Zurab Jvania Dövlət İdarəçilik Məktəbinin inkişafının və xaricdə gürcüşünaslıq mərkəzlərinin inkişafının təşviqinin vacibliyini də vurğulayıb.

Parlamentin 10 iyun tarixində təsdiqlədiyi Gürcüstanın "Ali təhsil haqqında" qanunundakı dəyişikliklərə əsasən, universitetlərin bakalavr tələbələri xüsusi gürcü dili kursu keçməlidirlər.

## Maka Boçorişvili: "Avrasiyanın tranzit yollarında öz rolumuzu gücləndirməyə hazırıq!"

"Gürcüstanın strateji əhəmiyyəti son hadisələr fonunda, xüsusən də Rusiyanın Ukraynaya qarşı müharibəyə başlamasından sonra daha da həlledici olub", - deyə Gürcüstanın Xarici İşlər naziri Maka Boçorişvili Xorvatiyanın Dubrovnik şəhərində keçirilən "Avropa və Asiyanın birləşdirilməsi: əməkdaşlıq və firavanlıq yolu" adlı panel müzakirəsindəki çıxışında açıqlayıb.

Nazir Gürcüstanın regional nəqliyyat və enerji əlaqələrində roluna diqqət çəkib, Asiya və Şərq ölkələrinin Avropa İttifaqı ilə birləşdirilməsi imkanlarından danışıb və Gürcüstanın məqsədinin ticarət-iqtisadi əməkdaşlıq mərkəzinə çevrilmək olduğunu qeyd edib.

Nazir Gürcüstanın iqtisadi uğurları və regional əməkdaşlığın əhəmiyyəti haqda da danışıb. O qeyd edib ki, Gürcüstan iqtisadi azadlıq, açıq bazarlar, etibarlı biznes mühiti sayəsində uğurlu islahatların və sürətli inkişafın beynəlxalq aləm tərəfindən tanınan nümunəsinə çevrilib.

"Belə iqtisadi sabitlik bizim Avropa gələcəyimiz üçün həyati əhəmiyyət kəsb edir, çünki Avropa İttifaqına inteqrasiya ardıcıl inkişaf, iqtisadi artım və davamlı islahatlar tələb edir", - deyə Xarici İşlər naziri qeyd edib. Maka Boçorişvili Gürcüstanın beynəlxalq reytinqdəki aparıcı mövqeyinə də diqqət edib.

Gürcüstan - Avropa İttifaqı münasibətləri barədə danışan Maka Boçorişvili qeyd edib ki, Gürcüstan aydın şəkildə formalaşmış Avropa kimliyinə sahib ölkədir.

"Biz inanırıq ki, Gürcüstan olmadan Avropada təhlükəsizlik və sabitliyə nail olmaq çətin olacaq və güclü, iqtisadi cəhətdən səmərəli, sülhsevər və sabit Avropa İttifaqına dair baxışlar yarımçıq qalacaq", - deyə Xarici İşlər naziri bəyan edib.

Səfər çərçivəsində Maka Boçorişvili əməkdaş nazirlərlə ikitərəfli görüş keçirib.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

• ABŞ və Avropa ölkələri İranla yeni nüvə sazişinin bağlanması üçün son müddətin avqustun sonu olacağı barədə razılığa gəliblər. Bundan sonra Tehrana sanksiya təzyiqləri bərpa olunacaq.

• ABŞ prezidenti Donald Tramp Rusiyaya qarşı iyulun 14-də elan edilmiş sanksiyaların tətbiq olunmayacağına, Ukraynada 50 gün ərzində nizamlamanın əldə olunacağına ümid etdiyini bildirib.

• Amerikanın Ermənistandakı səfiri bəyan edib ki, ABŞ Azərbaycanı Ermənistan ərazisindən keçməklə Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizini 100 il müddətinə icarəyə götürə bilər. Ermənistan səfirin sözlərini təkzib edib, Ağ Ev isə təsdiqləməyib.

• "Axios" portalı xəbər verir ki, İsrail hakimiyyəti ABŞ-nin tələbindən sonra Suriya hərbi obyektlərinə zərbələri dayandırmağa razılaşıb.

• Tramp bildirib ki, ABŞ İranla nüvə sazişi üzrə danışıqları davam etdirməyə tələsmir. Buna səbəb ABŞ-nin zərbələrinin İranın nüvə obyektlərini məhv etməsidir.

• Aleksandra Koul Böyük Britaniyanın Ermənistandakı səfiri təyin edilib. O, bundan əvvəl Böyük Britaniyanın Gürcüstandakı səfirinin müavini vəzifəsində çalışıb.

• İranın xarici işlər naziri Abbas Əraqçi Çin prezidenti Si Cinpinlə danışıqlar aparıb. Görüş Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində baş tutub.

• Qətər Xarici İşlər Nazirliyi İsrail və HƏMAS ilə vasitəçilər arasında çərçivə sazişinin bağlanması ilə bağlı məsləhətləşmələrin davam etdiyini açıqlayıb. O, həmçinin ABŞ-nin xüsusi nümayəndəsi Vitkoffun Dohaya mümkün səfərini şərh edib.

• ABŞ prezidenti Donald Tramp "Patriot" zenit sistemi üçün nəzərdə tutulan raketlərin artıq Ukraynaya göndərildiyini açıqlayıb.

**Diplomatiya**

• Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş Assambleyasının 66-cı sessiyası çərçivəsində "Sakpatent"in sədri Soso Qiorqadze ÜƏMT-nin baş direktoru Darren Tanq ilə görüşüb. Görüşdə həmçinin Gürcüstanın BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi və "Sakpatent" sədrinin müavini Nino Çikovani də iştirak edib.

• "Gürcüstan hakimiyyəti bəzi ölkələrin bu məsələdən siyasi alət və ya təzyiq vasitəsi kimi istifadə etmək cəhdlərinə baxmayaraq, Avropa İttifaqı ilə vizasız rejimi saxlamaq üçün əlindən gələni edəcək", - deyə hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasından deputat Levan Maxaşvili bildirib.

• ABŞ səfiri Robin Danniqan Gürcüstandakı missiyasını başa vurub.

• Gürcüstan Parlamentinin spikeri Şalva Papuaşvili jurnalistlərə bildirib ki, Avropa İttifaqının ali nümayəndəsi Kaya Kallas əvvəlki hücumlara görə Avropa İttifaqı adından Gürcüstanın ədliyyə sistemindən üzr istəmək əvəzinə, gürcü hakimlərə böhtan atır və onları cəza ilə hədələyir.

**Ölkədaxili**

• İqtisadiyyat və Davamlı İnkişaf naziri Mariam Kvrivişvili Elektrik Sisteminin Kommersiya Operatorunun (ESCO) yeni baş direktoru Tornike Kazaraşvilini nazirliyin əməkdaşlarına təqdim edib.

• Gürcüstanın baş prokuroru Qiorqi Qvarakidze baş prokurorun yeni müavini Qiqa Dzneladzeni Gürcüstan Prokurorluğunun əməkdaşlarına təqdim edib.

**İqtisadiyyat**

• Gürcüstan Milli Bankı ilə Koreya Mərkəzi Bankı arasında nağdsız ödənişlərin inkişafı layihəsi rəsmən işə başlayıb.

• Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf nazirinin müavini İrakli Nadareişvili: "İxracın dəstəklənməsi və həvəsləndirilməsi Gürcüstan hökumətinin iqtisadi siyasətinin mühüm prioritetidir".

•2025-ci ilin yanvar - iyun aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 11 933,4 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,7% çoxdur.

**Mədəniyyət**

• Gürcüstan Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Yaradıcı Gürcüstan" müsabiqəsi çərçivəsində "Tbilisi və regionlarda təsviri incəsənət sahəsində yaradıcı təşəbbüslərin təbliği" elan edilib.

•"Suliko" mahnısının ifa ənənəsinə qeyri-maddi mədəni irs abidəsi statusu verilib.

• Qiorqi Leonidze adına Dövlət Gürcü Ədəbiyyatı Muzeyinin tam bərpasına başlanılıb.

**Maraqlı**

• Alimlər ən böyük qara dəlik birləşməsini qeydə alıblar. Kütləsi indi Günəşimizdən 225 dəfə böyük olan iki obyekt vahid qara dəliyə birləşib.

• Arxeoloqlar Türkiyənin Hisarlıq bölgəsində aparılan arxeoloji qazıntılar zamanı Troyada hərbi münaqişənin izlərini aşkar ediblər. Yerli media bildirir ki, tapıntı qədim yunan epik poemasının "İliada"sında təsvir olunan hadisələrə sübut ola bilər.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

**Badımcan**



Süfrələrin bəzəyi, milli mətbəximizin zinəti olan badımcan latınca "Solanum melongena" adlanır və quşüzümükimilər fəsiləsinə aiddir. Botanikada badımcan giləmeyvə sayılsa da, mətbəxdə tərəvəz olaraq qəbul edilir. Bu əsrarəngiz dada və görünüşə malik bitkinin vətəni Hindistandır. Badımcanı Afrika və Avropaya yayanlar isə ərəb tacirlər olub.

Badımcanın müxtəlif növləri var. Bunlardan uzun və ya klassik badımcan, yumru badımcan, ağ badımcan və Çin badımcanı ən yayğın növlərdir.

Müxtəlif xalqlar milli mətbəxlərində badımcandan geniş istifadə edirlər. Belə, milli mətbəximizdə badımcandan dolma, qazan kababı və hətta mürəbbə hazırlanır. Hindlilər badımcandan şorba hazırlayırlar.

**Badımcan təkcə dadlı deyil, eyni zamanda vitamin və minerallarla da zəngindir, buna görə də insan orqanizmi üçün olduqca faydalıdır.** Badımcanın tərkibində immun sistemini gücləndirən C vitamini, sümük sağlamlığı üçün lazım olan K vitamini, sinir sistemi və enerji istehsalı üçün vacib olan B1, orqanizmdə maddələr mübadiləsini tənzimləyən, dəri və sinir sağlamlığını təmin edən B3, qan hüceyrələrinin yaranmasına kömək edən B6 və hüceyrə bölünməsi prosesi üçün lazımlı B9 vitaminləri var. Saydığımız vitaminlərdən başqa, badımcanın tərkibində ürək-damar sistemi üçün faydalı olan və təzyiqi tənzimləyən Kalium, sümük quruluşuna faydalı təsir göstərən Manqan, əzələlərin işləməsini tənzimləyən Maqnezium, qırmızı qan hüceyrələrinin yaranmasına kömək edən Mis və diş sağlamlığını təmin edən Fosfor kimi minerallar var. Badımcan aşağı kalorilidir (100 qramda təxminən 25 kalori var). Badımcan yüksək su tərkibinə malik olduğuna görə orqanizmi nəmləndirir. Məhsul Antioksidantlarla, xüsusilə də nasunin adlı maddə ilə zəngindir (xüsusilə qabığında olur). Bu maddə hüceyrələri zədədən qoruyur. Əlavə edək ki, bitki lifli zəngindir, bu da həzm sistemini tənzimləyir və qəbizliyin qarşısını alır.

Beləliklə, badımcan qan təzyiqini tənzimləyir, ürək sağlamlığını qoruyur, xolesterini azaldır, xərçəng riskini azaldır və sümük sağlamlığına faydalı təsir göstərir

**Amma badımcan bəzi hallarda zərərli də olur.** Çiy və ya tam yetişməmiş badımcanın tərkibindəki solanin adlı maddə zəhərlənməyə səbəb ola bilər (baş ağrısı, ürəkbulanma, qarın ağrısı). Bəzi insanlarda badımcana qarşı nadir hallarda allergik reaksiyalar (qaşınma, səpkilər) ola bilər. Tərkibindəki nasunin orqanizmdə dəmirin sorulmasını azalda bilər – xüsusilə qanazlığı olanlar diqqətli olmalıdır. Böyrək daşı problemi olan insanlar oksalat ilə zəngin qidaları məhdudlaşdırmalıdır. Yağda çox qızardılmış badımcan yağ çəkərək kalorini artırır və sağlamlığa mənfi təsir göstərə bilər.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏNA** *is. [ər.]* Xına.

*Dünən oğlanı göndərdim, gedib Məşədi Məhəmməd Nəcəfin dükanından bir az həna gətirdi.*

C. Məmmədquluzadə.

◊ **Heç hənanın yeridir** – yersiz, münasibətsiz deyilən söz haqqında.

**HƏNALI** bax **Xınalı.** *Hənalı saç. – Səqfin yavıqlığındakı arvad yerlərində belə pərdələr qalxıb, hənalı əllər ustanı göstərirdi.*

Çəmənzəminli.

**HƏNDƏSƏ** *is. [ər.* əsli *fars.* əndazə] Riyaziyyatın cisimlərin səth formalarından və onların münasibətlərindən bəhs edən şöbəsi. *Həndəsə məsələləri.*

*Hər şəhrdə bir məktəbi-sənət açacaqdır,*
*Oğlanlar alıb həndəsə, memar olacaqdır.*

M. Ə. Sabir.

**HƏNDƏSƏŞÜNAS** *is. [ər.* həndəsə və *fars.* ...şünas] Həndəsə alimi, həndəsə mütəxəssisi, həndəsəni yaxşı bilən adam.

**HƏNDƏSİ** *sif. [ər.]* 1. Həndəsəyə, həndəsə elminə aid olan, həndəsə ilə əlaqədar olan. *Həndəsi üsul. Həndəsi aksiom.*

*Xalam mətbəxdə qutab üçün yoğurduğu kiçik kündələri oxlov altına salıb cığara kimi nazik və həndəsi çevrə kimi yuvarlaq yuxalar yayırdı..*

Ə. Məmmədxanlı.

2. Xətlərdən, nöqtələrdən və sxematik fiqurlardan (üçbucaqlardan, konuslardan, əyri xətlərdən və s.) ibarət olan. *Həndəsi ornament.*

*Ax, bu dəmir ağaclar,*
*Həndəsi üçbucaqlar,*
*Dünyanın o başını,*
*Çəkib evlərə bağlar...*

B. Vahabzadə.

**HƏNDƏVƏR** *is.* Ətraf, dövrə, yan - yörə. *Həyatin həndəvəri. Evin həndəvərində dolanmaq.*

*Keşikçilər* [qulu] *Çənlibelin həndəvərində görüb, tutub Koroğlunun yanına gətirdilər.*

“Koroğlu”.

**HƏNƏFİ** *is. [ər.]* Sünnilərin Əbu Hənifə təriqətinə mənsub olanları.

**HƏNƏK** *is. [ər.]* Zarafat.

*Əvvəli hənək, axırı dəyənək.*

(Ata. sözü).

■ **Hənək etmək (eləmək)** – zarafat etmək, zarafatlaşmaq, hənəkləşmək, şuxluq eləmək.

*Qəvvas səsləndi .. and olsun cavan canuva, mən səniynən hənək eləyirdim.*

(Nağıl).

**HƏNƏKÇİ** *sif.* Zarafat sevən, zarafatçı, zarafatcıl. *Hənəkçi oğlan.*

**HƏNGAM** *zərf [fars.] klas.* Vaxt, zaman, çağ. *Bu həngamda* (bu vaxtda, bu anda). *O həngamda* (o vaxtda, o anda).

*Nuş olur canıma ət, xassə, o həngamda kim,*
*Mən yeyəm, xırda uşaqlar baxa, ağlaşa, ətə.*

M. Ə. Sabir.

**HƏNGAMƏ** *is. [fars.]* Qovğa, mərəkə, gurultu, gurultu-patırtı.

*Bu nə həngamədir? – ..Fəxrəddin bu qədər böyük və dəhşətli həngaməni birinci dəfə gördüyü üçün qorxmuşdu.*

M. S. Ordubadi.

**HƏNİR** *is.* Yavaş səs.

*Bir ağac yıxıldı yol qırağında,*
*Bir hənir yox oldu yol qırağından..*

M. Araz.

**HƏNİRTİ** *is.* Canlı səsinə oxşar yavaş səs, qulağa dəyən anlaşılmaz səs. *Uzaqdan hənirti eşitmək.*

*Gözləyirdim durub da pusquda mən,*
*O da duydu hənirtimi birdən.*

A. Səhhət.

**HƏNUZ** *zərf [fars.] köhn.* 1. Hələ, hələ ki. *Dedim:*

*Getmə, bala, hənuz uşaqsın,*
*Dünyanın işini bilən tapılmaz..*

M. Müşfiq.

2. İndi, indicə. *Dedi:*

*“Qışdır, hənuz, həmsayə,*
*Meyvə fəsli deyil, dayan yayə”.*

M. Ə. Sabir.

**HƏPƏND** is. Axmaq, başıboş, gic; duzsuz (zarafatla yüngül söyüş məqamında işlənir).

[Cəbi:] *Bir mənə deyən gərək ki, ay həpənd, sən nə girmisən meydana.*

N. Vəzirov.

**HƏPİR** *sif.* Xarab olmuş, çürük.

**HƏR** *əvəz* 1. Bir toplunun ayrıca götürülən fərdi, onu təşkil edən şeylərdən hər biri. *Hər adam. Hər ailə. Hər adambaşına.*

**HƏRAMİ** *is. [ər.]* Quldur, çapovulçu, yolkəsən.

*Oğru ol, hərami ol, doğruluğu əldən buraxma.*

(Ata. sözü).

**HƏRAMİLİK** *is.* Quldurluq, ça-povul (çuluq), yolkəsmə.

**HƏRARƏT** *is. [ər.]* 1. İstilik. *Havanın hərarəti. Sobanın hərarəti.*

*Bahar günəşinin hərarətitək,*
*Xəyalım dünyanı salama gəlir.*

S. Vurğun.

// İnsan bədəninin istilik dərəcəsi (səhhətin göstəricisi kimi); qızdırma.

2. *məc.* Mehribanlıq, səmimiyyət; səmimi, xoş hisslər, xoş münasibət.

*Dedim, iki anam vardır, qoy var olsun*
*bu həqiqət,*
*Onlarındır şerimdəki bu məhəbbət,*
*bu hərarət.*

S. Rüstəm.

3. *is.* **Hərarətlə** şəklində *zərf* – mehribanlıqla, səmimiyyətlə, xoş hisslərlə, xeyirxahcasına, coşqunluqla. *Hərarətlə görüşmək.*

*Qadın qollarını açıb, Tahirin boynunu hərarətlə qucaqladı.*

M. Hüseyn.

**HƏRARƏTÖLÇƏN** bax **termometr.** *Hərarətölçənlə qızdırmanı ölçmək.*

*Həkim qız hərarətölçəni Heybətə verdi.*

M. Hüseyn.

**HƏRAYLIQ** *sif.* Hər ayda alınan (verilən), hər ayda görülən (görülməli olan), hər ay üçün nəzərdə tutulan. *Həraylıq maaş. Həraylıq plan. Həraylıq xərc.*

**HƏRB** *is. [ər.]* Müharibə, döyüş, savaş. *Dünya hərbi.*

*O təmiz alnında gördüyüm vüqar,*
*Vətəndaş hərbindən qalmış yadigar.*

S. Vurğun.

■ **Hərb etmək** – müharibə etmək.

*Hərb edib çarpışırıq sizlər üçün!*
*Çalışıb çarpışırıq sizlər üçün!*

H. Cavid.

**HƏRBCU** *is. [ər.* hərb və *fars.* ...cu] *köhn.* Dava etməyi, vuruşmağı sevən; dava axtaran, müharibə axtaran.

**HƏRBÇİ** *is.* 1. Hərbi xidmətdə olan adam, hərbi xidmətçi; hərbiyyəli. *Hərbçilərin təlimi.*

*Ucqar stansiyalarda .. silahlı hərbçilərə rast gəlmək olur.*

Ə. Əbülhəsən.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. “Gürcüstan” qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## პროფესიის არჩევანი (Propesiis arçevani) Peşə seçimi

**პროფესიის არჩევანი შენი მომავლის რუკაა.** (Propesiis arçevani şeni momavlis rukaa.) **– Peşə seçimi sənin gələcəyinin xəritəsidir.**

**ყველა ადამიანს განსხვავებული გზა აქვს.** (Ğvela adamians qansxvavebuli qza akvs.) **– Hər bir insanın fərqli yolu var.**

**ამ გზაზე პროფესიის არჩევანი ერთ-ერთი ყველაზე მნიშვნელოვანი ნაბიჯია.** (Am qzaze propesiis arçevani ert-erti ğvelaze mnişvnelovani nabicia.) **– Bu yolda peşə seçimi ən vacib addımlardan biridir.**

**ჩვენი საქმე განსაზღვრავს იმას, თუ როგორ ვიცხოვრებთ მომავალში.** (Çveni sakme qansazğvravs imas, tu roqor vitsxovrebt momavalşi.) **– Bizim işimiz, gələcəkdə necə yaşayacağımızı müəyyən edir.**

**პროფესია მხოლოდ ხელფასი არ არის.** (Propesia mxolod xelpasi ar aris.) **– Peşə yalnız maaş demək deyil.**

**ეს შენი ინტერესები და შენი ტალანტია.** (Es şeni interesebia, şeni talantia.) **– Bu həm də sənin marağın və istedadındır.**

**არჩევისას, არ იფიქრო მხოლოდ იმაზე, რა მოაქვს ბევრ ფულს.** (Arçevisas, ar ipikro mxolod imaze, ra moakvs bevr puls.) **– Seçim edərkən təkcə hansı işin daha çox pul gətirdiyini düşünmə.**

**იფიქრე იმაზე, რა გიყვარს და რას აკეთებ სიამოვნებით.** (İpikre imaze, ra qiğvars da ras aketeb siamovnebit.) **– Nəyi sevdiyini və nəyi həvəslə etdiyini düşün.**

**როცა გიყვარს ის, რასაც აკეთებ, შრომა აღარ გეჩვენება მძიმე.**(Rotsa qiğvars is, rasats aketeb şroma ağar qeçveneba mdzime.) **– Əgər sevdiyin işi görürsənsə, zəhməti belə ağır görünmür.**

**ნუ შეგაშინებს სირთულეები, არცერთი გზა არ არის მარტივი.** (Nu şeqeşinebs sirtuleebi artserti qza ar aris martivi.) **– Çətinliklər səni qorxutmasın heç bir yol asan deyil.**

**ყველაზე წარმატებული ადამიანები ისინი არიან, ვინც აკეთებს იმას, რაც უყვართ და სხვებსაც აძლევს სარგებელს.** (Ğvelaze tsarmatebuli adamianebi isini arian, vints aketebs imas, rats uğvart da sxvebsats adzlevs sarqebels.) **– Ən uğurlu insanlar sevdiyi işi görən və başqalarına da fayda verənlərdir.**

**შეარჩიე არა მხოლოდ პროფესია აირჩიე გზა, რომელიც შეგეფერება.** (Şearçie ara mxolod propesia airçie qza, romelits şeqepereba.) **– Yalnız təkcə peşəni deyil, sənə uyğun olan yolu seç.**

**მოუსმინე საკუთარ გულს და დაიჯერე საკუთარი ძალა.** (Mousmine sakutar quls da daicere sakutari dzala.) **– Ürəyini dinlə və gücünə inan.**

# ŞƏHƏRDƏ QIRĞI NƏ GƏZƏR AXI?!

*Əvvəli ötən sayımızda*

***Arçil Erqemlidzeyə ithaf olunur***

***Nodar Dumbadze***



Maraqlandım:
– Görəsən o, nə istəyir ki?
– Deyir ki, meylim qəhvə çəkir, özünüz için, amma məni heç adam yerinə də qoymursunuz!
Tel çəpərdən uçub gələrək, yerə qonan sərçə ehtiyatla fincana yanaşmağa başladı.
Açiko isə ona ürəkdirək verməyə başladı:
– Yanaş, yanaşsana, qorxma!
Fincanın içinə boylanan sərçə oradakı qəhvə çöküntüsünü dimdikləməyə girişdi.
– Ancaq ona çox da həvəs salma, Allah eləməmiş, ürəyin xəstəlik - zad tapar, – deyən Açiko bu səfər də tələsə qapıldı və əyildi ki, fincanı yerdən qaldırsın. Yerdən pır-r-r eləyərək uçan sərçə təkrar gedib, tel çəpərə qondu.
Çörək qırıntılarıyla dolu ovcunu sərçəyə sarı uzadan Açiko dedi:
– Buyuracaqsınız, zati-aliləri!
Qısa tərəddüddən sonra xırda qanadlarını çırpan sərçə onun əlinə yanaşsa da, ora qonmadı, ovcun ətrafında dövrələr vurmağa başladı. Görünür, hər ehtimala qarşı ehtiyatlı davranmağı uyğun bilirdi, ona görə də özünə tərəf uzanan ovcun yan-yörəsində bir neçə kərə fırlandı. O ara Açiko isə qımıldanmadan, donub qaldığı üçün, ən axırda, sərçə onun ovcuna enmək qərarına gəldi. Ancaq yenə də qırıntıları dənləməzdən öncə Açikonun gözlərinin içinə dimdik baxmağa gərək duydu.
Özümdən ixtiyarsız o dəm elə mən də dostumun gözlərinə baxdım. Onlarda, Açikonun o palıdı gözlərində sonsuz bir həzz və sevgi ifadəsi donmuşdu. Sərçə də bu nəcib gözlərin sahibinə ürək qızdırdı… Onun iri ovcundakı çörək qırıntılarını arxayınlıqla dənləməyə girişdi.
Yeməyini bitirdikdən sonra sərçə təkrar uçub, tel çəpərin üstünə qondu və dimdiyini qabarıq sinəsinə silməklə təmizlədi.
Nəfəsimi içimə qısmaqla, mən də bütün bu olub-bitənlərə göz qoyurdum. Əgər bütün bunlara bir kənardan şahid olan birisi tapılsaydı, onu heç cür inandıra bilməzdik ki, nə bu sərçə ələ öyrədilmiş, əhliləşmiş quşdur, nə də Açiko onun təlimçisidir.
Heyrət içində ona səsləndim:
– Sən ki əsl Durovsan!
(Qeyd: Vladimir Durov (1863 – 1934) heyvan təlimçisi kimi bütün dünyada şöhrət qazanan rus-sovet sirk ustasıdır. Onun qardaşı və digər ailə üzvləri də bu sənətlə məşğul olublar – A.Y.)
Bu şirin macəraya qapılan dostum:
– Durov mən deyiləm ey, əsl sənsən, bax, gör, o, mənim başıma hələ nə oyunlar açacaq, – deyə etiraz elədi və qalan çörək qırıntılarını öz başına tökərək, sərçəyə səsləndi: – Süfrəyə buyurun, zati-aliləri!
Bunu deyib, qollarını təzimlə yanlara doğru açdı.
Və qəfildən heç gözlənilməz bir olay baş verdi… gözlənilməz olduğu qədər də dəhşətverici bir olay… İri və xaçvarı bir kölgə masamızın üzərindən keçib-gedən kimi o sərçəcik də yoxa çıxdı! Hə, bizim o sərçəcik qeybə qarışdı!
Açiko karıxmış halda soruşdu:
– Bəs necoldu quş?
Dilim güclə söz tutduğundan eləcə:
– Qırğı… – deyə bildim.
Dostum titrək bir səslə xəbər aldı:
– O sərçə necoldu axı?
Çiyinlərimi çəkərək, çətinliklə udquna bildim.
Dostum qəfil yerindən sıçrayaraq, barmenə tərəf cumdu:
– Kömək eləsənə!
– Nə olub axı?
– O sərçə!
Barmen lap çaşıb qaldı:
– Nə sərçə, hansı sərçə?
– Qırğı mənim sərçəmi alıb-apardı!
– Bura bax, sən nə danışırsan: şəhərdə qırğı nə gəzər axı?! – deyən barmen əlini yelləməklə, öz dəzgahının arxasına keçdi.
Açiko mənə tərəf cumdu:
– Hara getdi sərçə?
Xahişə keçdim:
– Bir hovur otursana.
– Səndən soruşuram ey: quş hara getdi?
– Onu qırğı alıb-apardı…
– Necə yəni "alıb-apardı"?! Biz üçlükdə oturub, yeyib-içir, deyib-gülürdük, qəfil uçub-gələn qırğı isə birimizi öz caynağına alıb-aparır – və bununla hər şey bitib-gedir, eləmi?!
Ona yalvarmalı oldum:
– Yaxşı da, Açiko.
Açiko isə yırtıcı baxışlarla məni süzürdü. Sonra o, əyləşdi, üzünü ovuclarının arasına aldı. Uzun-uzadı bu cür oturdu.
Əlimi onun çiyninə qoydum:
– Yaxşı da, Açiko, özünü ələ al…
O, qətiyyətlə yerindən qalxıb, məkanı tərk etdi və heç geri də baxmadı…
Bir müddət təkbaşına oturmağıma davam elədim. Sonra barmen mənə yanaşıb soruşdu:
– Keflənmişdi o, eləmi?
– Kimi deyirsən?
– Dostunu.
– Yox, canım, biz elə çox vurmamışdıq axı, eləcə üçlükdə oturmuşduq, mən burada, o, orada, o biri isə…
Əvvəlcə məni, sonra isə başından cəmi ikicə barmaq qədər içilən butulkanı şübhə ilə süzən barmen soruşdu:
– Necə yəni "üçlükdə"?!
– …o, yəni sərçəcik isə orada, tel çəpərin üstündə oturmuşdu və qəfil haradansa bir qırğı peyda oldu…
Barmen lap özündən çıxdı:
– Sizə nə olub belə?! İkiniz də havalanıbsınız ha deyəsən: şəhərdə qırğı nə gəzər axı?!
– Qırğı deyirəm sənə. Bax, indi səni gördüyüm kimi gördüm onu…



Barmen soyuqqanlı tərzdə sözümü ağzımda qoydu:
– Borcun on manatdır.
Onluğu ona uzadıb, yerimdən qalxdım. Qaldığımız otel otağına qayıtdığım zaman Açiko öz çarpayısında üzüquylu uzanmışdı.
Hələ də hönkürürdü.

***Tərcümə etdi:* Azad YAŞAR**

*Müşfiq Borçalı— 55*

## TƏBRİK EDİRİK!



"Ziya" İnformasiya Mərkəzinin və ZiMAz saytının təsisçisi və baş redaktoru, tanınmış jurnalist, ədəbiyyatşünas alim, istedadlı yazıçı, zəhmətkeş tədqiqatçı, prinsipial tənqidçi, onlarla kitabın, yüzlərlə elmi və elmi-publisistik məqalələrin müəllifi, 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1998-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü, 2016-cı ildən filologiya üzrə fəlsəfə doktoru, "Abdulla Şaiq", "Nəriman Nərimanov", "Zirvə", "Zəfər", "Qızıl Qələm" və s. mükafatların laureatı olan ***MÜŞFİQ BORÇALI*** (Müşviq Mədəd oğlu Çobanov) - bu günlərdə AYB-nin (Azərbaycan Yazıçılar Birliyinin) tədqimatı ilə **Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında"** müvafiq Sərəncamına əsasən **Prezident təqaüdünə** layiq görülüb.

**MÜŞFİQ BORÇALI** (Müşviq Mədəd oğlu Çobanov) anadan olmasının 55 illiyi və Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi münasibətilə daha bir fəxri mükafata layiq görülüb.

O, Türk Dünyası və türk xalqları arasında ədəbi-mədəni əlaqələrin qurulması, dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi naminə göstərdiyi böyük xidmətlərə görə, qardaş Türkiyə Cumhuriyyətinin Çukurova Ədəbiyyatçılar Dərnəyinin təsis etdiyi ***"MUSTAFA KEMAL ATATÜRK"*** **Qızıl medalı** ilə təltif olunub.



**"Gürcüstan"** qəzetinin kollektivi məhsuldar, tədqiqatçı və ədəbiyyatşünas, səmimi insan, təəssübkeş el-oğlu Müşfiq Mədəd oğlu Çobanovu yubileylərlə əlaqədar olaraq təltif olunduğu bu ali mükafatlar münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, məsuliyyətli və şərəfli vəzifələrində uğurlar arzulayır!

*E S S E*

## A T Ə Ş K Ə S



***Argentinalı dünya yazıçısı Xorxe Luis Borxes kimi mahir söz ustası belə yazdıqları ilə deyil, oxuduqları ilə qürur duyurdu. O deyirdi: "Bəziləri yazdıqları kitablarla öyünür, mən isə oxuduqlarımla".***

Əslində onun yazdıqları da oxuduqları kimi öyünüləcək şedevrlərdir. Öz yaratdıqları da, başqalarının yaradıqları da qürur qaynağıdır.

Ancaq çox qəribə dövrdə yaşayırıq: ətrafımızda müharibələr tam sürətlə "böyüyür". Dünənki "lokal körpə" toqquşmalar bu gün "regional dəliQANLI" cavandır, üzü "dağıdıcı qlobal ahıllığa" – ümumbəşəri ağılsızlığa tərəfdir. Dünya müharibəsi təhlükəsini "qapıdan qovursan, pəncərədən soxulur".

Biz də odlu bir halənin içində sülh adası kimi qalmışıq. Şimaldan və cənubdan müharibələrin "mühasirə"sinə düşmüşük. Dövlətlər bir-birinin başına dağıdıcı raketlər, partlayıcı maddə yüklü dronlar, çoxtonluq bombalar yağdırır.

...Yazdıqları ilə dünyanı qürurlandıran Borxes özü, bəli, oxuduqları ilə qürurlanırdı. Bir də qlobal səhnənin "aktyorları"na – geosiyasi aktorlara baxın: qurub yaratdıqları ilə deyil, vurub dağıtdıqları ilə fəxr edirlər. Hər hansı ölkə nüvə dövləti olana qədər dövlətçiliyinin nüvəsi az qala dağılıb gedir. Özü ekzistensial təhlükə mənbəyi olanlar eyni təhlükə ilə üzləşiblər. Ən pisi odur ki, bəzi rejimlər başqalarından daha çox öz xalqı üçün təhlükədir artıq.

Daha çox ev yıxmaqla, daha çox adam öldürməklə, daha çox şəhər dağıtmaqla qürur duyan "lider"lər cavan oğulların qanı və dərdli anaların göz yaşı ilə meydan sulayır.

Bax, belə bir Dünyada yaşayırıq. Beləcə, bu "meydan"ın tən ortasında dayanıb, başına yağacaq fəlakətlərin yolunu gözləyir hər kəs.

Gör, dünyanın və zamanın harasıdır ki, biz azzamanlı atəşkəslərə sevinirik, döyüşlərarası qısa fasilələrlə ovunuruq. Yaxın Şərqdə "realiti cəhənnəm" kiçik pauza verəcəkmiş! Nə böyük bəxtəvərlik!

Qısa, ya uzun – fərqi yoxdur, atəşkəs müharibəsizlik deyil, bir az ara verməkdir, nəfəs dərib, sonra təzədən qaldığın yerdən ölüb-öldürməyə davam etməkdir.

Atəşkəs – ölən sülhün xatirəsini "bir dəqiqəlik sükutla" yad eləməkdir. Atəşkəs ardı-arası kəsilməyən ölümcül oyunların əliqanlı oyunçularına hərdən saygı duruşuna keçməkdir.

Atəşkəs özlüyündə sanki yaxşı bir şeydir, amma və lakin...

Həqiqi və səmimi sülh əldə edə bilməyəcək adamların daha çox öldürmək üçün azca dayanıb nəfəslənməsidir atəşkəs. Axı bu dünyaya atəşkəs yox, atəşsizlik gərəkdir! İnsanlığa fasiləli savaş yox, fasiləsiz barış lazımdır. Nüvə alimləri atomu ilk dəfə parçalayanda, görəsən, Planetdə həyatın nüvəsini parçalayıb dağıdacaq gücün əsasını qoyduqlarını bilirdilərmi?!

...Yer üzündə yüksək sivilizasiya qurduğumuzla qürur duyuruq, amma bəşəriyyət olaraq o sivilizasiyanın da axırına özümüz çıxırıq. Bunun da günahkarları dünyada söz yiyəsi olanlardır. Daha əvvəl yazmışdım: "Dünyada söz yiyəsi olanlar – sözünün yiyəsi deyillər"!

Bax, bizim başımızı zaman-zaman atəşkəslə aldadıb, özləri atəşlə oynayırlar. Arabir döyüşü dayandırıb, ardınca daha çox döyüşürlər. Dünyada həyatın qiymətini qaldırıb, ölümü ucuzlaşdırır bu Dünya liderləri. Ona görə də məni qınamayın, belə atəşkəslərdən heç gözüm su içmir. Hətta el arasında deyildiyi kimi, gözümün içi ağrıyır. Bir sözlə, təcavüzkar, dağıdıcı müharibələrdə "nahar fasiləsi" rolunu oynayan atəşkəsdən lap zəhləm gedir...

…Dünya idarəçiliyinin əsasında hətta heç siyasət də deyil, cinayət dayananda səhnəyə muzdlu qatillər çıxır. Bu günlərdə qaladıqları qəddar ocağın işığı düşdü, daha aydın göründü o qatillər.

Budurmu, yeganə mümkün olan?! Müharibə?! Nə zamana qədər siyasət başımıza od yağdırıb, gözümüzə kül üfürəcək?! Haçanacan canımıza od vurub, öz ətimizdən özümüzə kabab çəkəcəklər?! Axı bu, belə hara qədər?!

Bəlkə əsl sual budur?!

Avropa, Turgenyevin dediyi kimi, Hamlet və Don Kixot obrazları arasında istədiyi qədər "var-gəl" etsin. Ancaq "olum, ya ölüm" Qərbdə (elə Şərqdə də) yeganə sual deyil: Dünya siyasəti "ölüm, ya öldürüm" dilemmasına dirənib.

Böyük siyasət budursa, bəs onda kiçiyi hansıdır?! Ətrafa geniş pəncərədən baxanda görürsən ki, heç bu Dünya siyasətlə də idarə olunmurmuş! Bilirsiniz, Dünya idarəçiliyinin əsasında bəlağət dayananda natiqlər, cəhalət dayananda qafillər, həqiqət dayananda aqillər, ədalət dayananda adillər, ticarət dayananda tacirlər səhnəyə çıxmışdı. Hələ bir yerdə ki idarəçiliyin xəmiri cinayətdən yoğrula, orda, əlbəttə, qatillər at səyirdəcək. Üstəlik, bu xəmirin mayasına cəhalətin zalım zülməti və vəhşi ticarətin ifrat praqmatizmi qarışıbsa, betərin betəri gəlib özünü yetirir.

Həmişə deyirik ha: "Allah betərindən saxlasın". Yox, Allahın deyil, Allahsızın işidir bu. Dünya od içindədir. Yer kürəsi özü boyda alov topuna dönüb, sonun başlanğıcına doğru fırlanır. Öz oxundan "çıxıb", özgənin atdığı alovlu ox ətrafında fırlanır sanki. Bu gün ətrafımızı sarmış müharibələr bu sonluğa çatmamış dayanmasa, sonra dayandırmaq daha çətin olacaq. Bu müharibələrdə təkcə insanlar deyil, insanlıq ölür. Həm də hələ(lik) salamat qalmış insanların gözləri önündə ölür insanlıq.

Amerikanın 35-ci prezidenti Con Kennedi düz deyirmiş: "Ya bəşəriyyət müharibələrin axırına çıxacaq, ya da müharibələr bəşəriyyətin"…

**Bahəddin HƏZİ**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**18 iyul**

•1919—Polşa-Ukrayna müharibəsi sona çatıb. Müharibənin səbəbi Avstriya-Macarıstan imperiyasının süqutu nəticəsində Qalisiya, Volın və Zakarpatyedə Qərbi Ukrayna Milli Respublikasının yaradılması olub. Həmin ərazilərə müstəqilliyini bərpa etmiş Polşa da iddia edib. Buna görə də 1 noyabr 1918-ci ildə Ukrayna dövlətinə qarşı müharibə başladıb. Nəticədə Qərbi Ukrayna Milli Respublikası mövcudluğunu itirib, əraziləri isə Polşa, Rumıniya və Çexoslovakiyanın tərkibinə daxil olub.

•2009-cu ildə bu gün BMT tərəfindən Beynəlxalq Nelson Mandela Günü elan edilib. Bu, Cənubi Afrika Respublikasında 1948-1994-cü illərdə hakimiyyətdə olan irqçi aparteid rejiminə qarşı mübarizə aparan Nelson Mandelanın anadan olan günü ilə əlaqəlidir.

**19 iyul**

• 1553 — İngiltərənin azyaşlı kralı VI Eduardın (1537 – 1553) vəfatından sonra taxta çıxan və İngiltərə kraliçası olan Ceyn Qrey 9 gün sonra taxtdan salınıb və yerinə ölkə tarixinə “Qanlı Mariya” kimi düşən I Mariya Tyudor gəlib.

•2003—Vyanadakı xəstəxanalardan birində avstriyalı cərrahlar dünya tibb təcrübəsində ilk dəfə dil transplantasiyası üzrə əməliyyat həyata keçiriblər. Bədxassəli ağız şişindən əziyyət çəkən 42 yaşlı pasiyentə donor dili köçürülüb. Uğurlu əməliyyatdan sonra xəstə normal həyata qayıdıb.

•Laosda Müstəqillik Günüdür. Ölkə 1893-cü ildən Fransanın müstəmləkəsi olub və 1949-cu ildə müstəqilliyini bərpa edib.

**20 iyul**

•1924—Fransanın paytaxtı Parisdə səkkizinci Yay Olimpiya Oyunları zamanı, hollandiyalı şahmatçı Aleksandr Ryubun təklifi ilə Argentina, Belçika, Böyük Britaniya, Macarıstan, İspaniya, İtaliya, Kanada, Hollandiya, Polşa, Rumıniya, Fransa, Çexoslovakiya, İsveçrə və Yuqoslaviya Beynəlxalq Şahmat Federasiyasını (FIDE) yaradıblar. Federasiyanın birinci prezidenti Aleksandr Ryub olub.

•1960—**Sirimavo Bandaranaike Şri - Lankanın hökumət başçısı vəzifəsinə seçilərək, dünyada ilk qadın baş nazir olub.**

**21 iyul**

•1774—Rusiya imperiyası və Osmanlı arasında Bolqarıstan ərazisindəki Küçük Qaynarca şəhərində 1768-1774-cü illər rus-türk müharibəsini sona çatdıran Küçük Qaynarca müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Osmanlı İmperiyası Qara dənizin şimalındakı ərazilərini itirib, Krım Xanlığını isə hər ikisi də müstəqil dövlət olaraq tanıyıb. Lakin bir neçə il sonra Rusiya İmperiyası Krım Xanlığını ilhaq edib.

•1822—Meksika İspaniyadan müstəqil olaraq, Meksika İmperiyası olub. Üç il sonra, 1823-cü ildə respublikaya çevrilib.

•1936 — **Nani Breqvadze, gürcü müğənni, anadan olub.**

**22 iyul**

•1099—Səlibçilər Qüdsü işğal etdikdən sonra, Qüds Krallığını qurublar. Məşhur səlibçi sərkərdə Bolonyalı Qotfrid kral titulundan imtina edib və “Müqəddəs Qəbirin müdafiəçisi” titulu ilə yeni qurulmuş dövlətin başçısı olub.

•1937 — Paolo İaşvili, gürcü şair, vəfat edib.

•**Azərbaycanda Milli Mətbuat Günüdür.**

**23 iyul**

•1711—Osmanlı imperiyasına qarşı səfərdə müasir Moldova ərazisində məğlub olan Rusiya çarı I Pyotr Prut müqaviləsini imzalayıb. Müqaviləyə əsasən, Rusiya Osmanlıya Azovu qaytarıb və Taqanroq qalasının sədlərini dağıtmağı öhdəsinə götürüb.

•1908—Ənvər Paşa, Tələt Paşa və Camal Paşanın başçılıq etdiyi “Birlik və Tərəqqi” cəmiyyəti Osmanlı İmperiyasında “Gənc Türklər” inqilabını həyata keçirib. Nəticədə II Əbdulhəmid taxtdan salınıb, Osmanlı imperiyasının 1876-cı ildə qəbul edilmiş konstitusiyası bərpa edilib.

**24 iyul**

•1923—İstiklal Müharibəsində Türkiyə tərəfindən məğlub edilən Yunanıstan və “Antanta”nın üzvləri Türkiyənin ərazi bütövlüyünü və suverenliyini tanıyan Lozanna müqaviləsini imzalayıblar.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## NANİ BREQVADZE



***Məşhur müğənni Nani Breqvadze 21 iyul 1936-cı ildə Tbilisidə musiqiçi ailəsində anadan olub.*** Altı yaşında artıq qədim rus mahnı və romanslarını ifa edib. Təhsilinə musiqi məktəbində başlayıb, məzun olduqdan sonra musiqi texnikumuna daxil olub. 1956-cı ildən Gürcüstan Dövlət Texniki Universitetinin özfəaliyyət estrada orkestrində iştirak edib. 1957-ci ildə Moskvada "Mən şamı söndürdüm" adlı 6-cı Ümumdünya gənclər və tələbələr festivalının laureatı olub.

1959–1964-cü illərdə K. Pevznerin rəhbərliyi altında Gürcüstan Dövlət Filarmoniyasının "Rero" Tbilisi Dövlət Estrada Orkestrinin üzvü olub. 1963-cü ildə V. Saracişvili adına Tbilisi Dövlət Konservatoriyasında professor Qayane Maçutadzenin fortepiano sinfini bitirib.

1964-cü ildə Parisdəki Moskva müzik-holluna qastrol səfəri edərək, ilk dəfə olaraq, dünya şöhrətli "Olimpiya" zalında çıxış edib.

1980-ci ildə solo karyerasına başlayıb. 1990-cı illərin sonunda "Romansiada" gənc ifaçıların Moskva beynəlxalq müsabiqəsinin münsiflər heyətinin tərkibinə daxil edilib.

1990-cı illərin sonunda "Romansiada" gənc ifaçıların Moskva beynəlxalq müsabiqəsinin münsiflər heyətinin tərkibinə daxil edilmişdir

Müğənninin ifa etdiyi mahnılar arasında «Ожидание» (“İntizar”), «Потерянная любовь» ("İtirilmiş sevgi"), «Снился мне сад» ("Yuxumda bağça gördüm"), «Снегопад» ("Qar yağışı"), «Тбилисо» ("Tbiliso")və s. kimi sabiq SSRİ çərçivəsində məşhur əsərləri qeyd etmək olar.

Nani Breqvadze yaradıcılıq fəaliyyətindən başqa, pedaqoji fəaliyyətlə də məşğul olub. 2002-ci ildən başlayaraq bir neçə il ərzində Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqi institutunda estradacaz ifaçılığı kafedrasının müdiri olub.

Nani Breqvadze bir çox mükafatın laureatıdır: “Gürcüstan SSR əməkdar artisti” (1968 il); “Gürcüstan SSR xalq artisti” (1974); “SSRİ xalq artisti” (1983); "Şərəf" ordeni (Gürcüstan, 1997); "Şöhrət" Prezident ordeni (Gürcüstan, 2010) və s.

## SİRİMAVO BANDARANAİKE



***20 iyul 1960-cı ildə dünya tarixində ilk dəfə olaraq qadın hökumət başçısı seçilib – Hind Okeanında yerləşən ada dövləti Şri-Lankanın baş naziri qadın siyasətçi Sirimavo Bandaranaike olub.***

Sirimavo Bandaranaike 17 aprel 1916-cı ildə Böyük Britaniyanın müstəmləkəsi olan Şri-Lankanın Balandoq şəhərində zadəgan ailədə anadan olub. Buddizmə mənsub olduğuna baxmayaraq, təhsilini Şri-Lankanın Kolombo şəhərindəki Müqəddəs Briqitta adına Katolik Məktəbində alıb.

1940-cı ildə Oksford Universitetinin məzunu olan və 1925-ci ildən müstəmləkə administrasiyasında müxtəlif vəzifələrdə çalışan Solomon Bandaranaike ilə evlənib. Solomon Bandaranaike 2 sentyabr 1951-ci ildə ölkənin mühüm siyasi partiyalarından biri olan sosial-demokrat Şri-Lanka Azadlıq Partiyasını qurub və 1956-cı ildə seçkilərdə qələbə əldə edərək, ölkənin baş naziri olub. Solomon Bandaranaike 1959-cu ildə onun daxili siyasətindən narazı müxalifət tərəfindən qətlə yetirilib. Sirimavo Bandaranaike Şri-Lanka Azadlıq Partiyasının sədri olub. 20 iyul 1960-cı ildə seçkilərdə qələbə qazanaraq, Sirimavo Bandaranaike Şri-Lankanın baş naziri olub. Onun hökuməti siyasi sistemin demokratikləşdirilməsi və mütərəqqi iqtisadi islahatlar siyasəti həyata keçirib, xarici neft şirkətlərini milliləşdirib, dini məktəblər sistemini inkişaf etdirib.

1965-ci ildə keçirilən seçkilərdə Şri-Lanka Azadlıq Partiyası Şri - Lanka Birləşmiş Milli Partiyasına məğlub olub və Bandaranaike müxalifətin lideri olub. 1970-ci ildə Birləşmiş Cəbhə koalisiyasının başında hakimiyyətə qayıtdıqdan sonra o, həm daxili, həm də xarici siyasətdə sosialist xətt yürüdüb. Bütün xarici banklar, limanlar, bir sıra sənaye sahələri (o cümlədən çay) milliləşdirilib, xarici ticarətdə dövlət inhisarçılığı qurulub. Həm SSRİ, həm də ÇXR ilə əlaqələr gücləndirilib.

22 may 1972-ci ildə yeni konstitusiya qəbul edilib, ona əsasən müstəqil dövlət — Şri - Lanka Demokratik Sosialist Respublikası elan edilib. Sirimavo Bandaranaike yeni müstəqil dövlətin baş naziri kimi and içib.

1977-ci ildə aparılan seçkilərdə Sirimavo Bandaranaikenin partiyası məğlub olub.

# AZƏRBAYCAN – MİLLİ MƏTBUAT GÜNÜ




22 iyul tarixi Azərbaycan maarifçiliyi üçün mühüm gündür. 150 il əvvəl, 22 iyul 1875-ci ildə böyük Azərbaycan publisisti, pedaqoqu və maarifçisi Həsən bəy Zərdabi “Əkinçi” qəzetinin nəşrinə başlayaraq Azərbaycan milli mətbuatının əsasını qoyub. O, qəzetin nəşrinə çətinliklə icazə alaraq, İstanbuldan Bakıya ərəb qrafikalı mətbəə şriftləri gətirib. Sözügedən qəzetin qurucuları arasında Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani kimi ədib və maarifçilər də olub.

“Əkinçi” qəzeti həftədə iki dəfə, hər sayı 300–400 tirajla nəşr olunub və 56 nömrəsi çıxıb.

“Əkinçi” qəzeti Azərbaycan cəmiyyətinin milli və mənəvi baxımdan inkişafı üçün olduqca mühüm rola sahib olub. Qəzetin səhifələrində elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edilib. “Əkinçi”nin nömrələri geniş kütlələr üçün aydın sadə və səlis dildə nəşr edildiyi üçün xalq arasında geniş yayılıb, elmi və mənəvi tərəqqinin zərurəti, qadın azadlığı və qadın təhsili ideyasını geniş yayıb. “Əkinçi” qəzetində təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr də dərc edilib. Həsən bəy Zərdabi qəzetin xalq arasında geniş yayılması üçün əlindən gələni edib. Belə ki, oxuyanların sayını artırmaq üçün o, çox vaxt nömrələri pulsuz paylayıb. Maarifçinin həyat yoldaşı Hənifə xanım xatirələrində maraqlı bir əhvalatı qeyd edib: ““Bir dəfə fransız qəzetinin baş müxbiri Bakıya gəlib çıxmışdı…O, bütün Rusiyada Azərbaycan dilində çıxan yeganə qəzetlə maraqlanaraq Həsən bəyin yanına gəlmişdi. Qəzetin üç il müddətində ancaq 300 abunəçisi olduğunu bilincə müxbir təəccüblə Həsən bəyə baxıb səmimi surətdə dedi: “Siz qəhrəmansınız, bizim Fransada bu cür yoxsul qəzetlər üçün işləyən adam tapılmaz…Görünür, siz öz xalqınızı çox sevirsiniz”.

Bu qəzet sadəcə Azərbaycanda yox, Gürcüstan, Dağıstan, Özbəkistan və nəhəng Rusiya İmperiyasının başqa yerlərində də yayılıb.

24 aprel 1877-ci ildə yeni rus-türk müharibəsi başlayıb. “Əkinçi” qəzeti qeyri - siyasi profildə dərc edilsə də, arxa cəbhədə “türk” dilində qəzetin mövcudluğundan ehtiyat edən Bakı qubernatoru Pozen həmin il sentyabrın 29-da “Əkinçi”nin nəşrinə rəsmən qadağa qoyub.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq Azərbaycanda bir müddət Azərbaycanca mətbu orqan çıxmayıb. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapıb. "Əkinçi" bağlandıqdan iki il sonra, 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tbilisidə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxararaq, azərbaycandilli mətbuatın canlandırılmasına nail olub.

Azərbaycan xalqının maariflәndirilməsində mühüm rol oynayan “Əkinçi” qəzetinin nəşrinin başlanması ölkədə Azərbaycanın Milli Mətbuatı Günü kimi qeyd edilir.



# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




İDMAN İDMAN

## KLUBLARARASI DÜNYA ÇEMPİONATININ QALİBİ BƏLLİ OLUB



***Futbol üzrə klublararası dünya çempionatının final görüşü keçirilib.***

Həlledici qarşılaşmada PSJ və "Çelsi" üz-üzə gəlib.

"Çelsi" ABŞ-də keçirilən klublararası dünya çempionatının finalında PSJ klubunu 3:0 hesabı ilə darmadağın edib. Qollar: K. Palmer ( 22 -ci və 30-cu dəqiqə), J. Pedro (43-cü dəqiqə)

## QARAÇÖPDƏ KİKBOKS ÜZRƏ YARIŞ KEÇİRİLİB




Saqareco bələdiyyəsinin Qaraçöp mahalında "Qafqaz Arena" İdman Assosiasiyası və "Qaraçöp" idman klubunun prezidenti, idman ustası İbrahim Məmmədovun birgə təşkilatçılığı ilə kikboks üzrə yarış keçirilib.

Yarışda Gürcüstanın müxtəlif bölgələrindən olan 200-ə yaxın yeni başlayan və peşəkar döyüşçü öz gücünü sınayıb.

Təşkilatçıların bildirdiyinə görə, bu cür yarışların keçirilməsində əsas məqsəd gəncləri sağlam həyata təşviq etməkdir.

Yarışın sonunda təşkilatçılar tərəfindən qaliblərə kubok və diplomlar təqdim olunub.

*DÜNYA, SƏNDƏN KİMLƏR KÖÇDÜ...*

## MƏZAHİRƏ MÜƏLLİMİN ƏZİZ XATİRƏSİNƏ



Dərin hüzn və kədər içində bildiririk ki, sevimli müəlliməmiz, əvəzolunmaz insan, ömrünü gənc nəslin təlim-tərbiyəsinə və ailəsinə həsr edən Məzahirə Musa qızı Əliyeva 22 iyun 2025-ci il tarixində haqq dünyasına qovuşmuşdur.

Məzahirə xanım 1956-cı ildə Marneuli rayonunun Ağməmmədli kəndində dünyaya gəlmişdir. Uşaqlıqdan elmə, biliklərə və xüsusilə riyaziyyata böyük maraq göstərən Məzahirə müəllimə həyatını təhsilə bağlamış, ömrünün sonuna qəfər bu amala sadiq qalmışdır. 45 il ərzində Aşağı Saral İctimai məktəbində riyaziyyat müəllimi kimi çalışmış, minlərlə şagirdin həyatında silinməz izlər buraxmışdır. O, yalnız bir müəllim deyil, həm də hər bir şagirdin yaddaşında doğma bir ana kimi qalmışdır. Bu özünü şagirdlərə qarşı isti və həssas münasibətdə, onların bilik və bacarığının yüksəldilməsində və layiqli vətəndaş kimi yetişməsinə hərtərəfli qaygı göstərməsində əks olunurdu.

O, Aşağı Saral kənd sakini Məhəddin Qaracayevlə ailə həyatı qurmuş və bu izdivacdan üç övlad — Səlahəddin, Məhbubə və Fatma dünyaya gəlmişdir. Məzahirə müəllimə həm ailədə, həm də cəmiyyətdə nümunəvi bir xanım, qayğıkeş bir ana, nəvələri Ləman, Yeganə, Səbinə, Samina, Aygün, Aysun, İbrahim, Cəlal, nəticəsi Melisa və gəlini Nuranə üçün mərhəmətli bir nənə, sevilən bir insan olmuşdur.

Məzahirə müəllimə peşəsinə və insanlara olan sevgisini son nəfəsinə qədər qorumuş, məktəbin, müəllim kollektivinin və kənd ictimaiyyətinin sevimlisinə çevrilmişdi. O, həm ailəsi, həm də şagirdləri üçün əsl mənəvi dayaq olmuşdur. İnsanı özündən sonra yaşadan məhz bu amillər deyilmi?!

Məzahirə müəllimənin itkisi Aşağı Saral kəndində, məktəb kollektivində və geniş ailəsi daxilində dərin hüznlə qarşılanmışdır. Onun xatirəsi daim qəlblərdə yaşayacaq, sədaqəti, mehribanlığı və zəhmətkeşliyi heç zaman unudulmayacaqdır.

**Allah rəhmət eləsin!**
**Ruhu şad, məkanı cənnət olsun!**

O gün sinif də ağladı sənsiz,
Sən getdin… qaldı lövhə də kimsəsiz.
Əlində qələm yox, qarşında dəftər,
Sənsiz bu məktəbi bürüyüb kədər.

Neçə uşaq sənin səsinlə böyüdü,
Neçə ürək sənin dərsinlə döyündü.
Riyaziyyat sənlə danışardı sanki,
Misallar əlində alışardı sanki.

Yorulmadın, sən ömrünü verdin,
Səbrinlə, hər kəsə işıq saçardın.
Nə usandın, nə də yorğunluq bildin,
Çünki sən hər kəsin doğması idin.

İndi kimsəsizdir oturduğun yer,
Jurnal da açıqdır… yazılmır bir kəlmə də.
Cismin yerdə, ruhun göydə.
Bir naxışsan, çalarların ilmədə.

Rəhmət yağsın qoy adının üstünə,
Dualar əzbərdir dillərdə sənə.
Səni unutmarıq dünyada heç vaxt,
Doğma ürəklərdə biz dönə-dönə.

**Ləman Qaracayeva**

## BAŞSAĞLIĞI



Marneuli Bələdiyyəsinin Kəpənəkçi kənd sakini Arzu Məhəmməd oğlu Şəkərov əmisi

**Zəlimxan Şəkərovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun oğulları Natiq, Vüqar və Cahandar Şəkərov qardaşlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## QUTANLARIN MACƏRASI



Foto E.Şahvələdindir.

*MARAQLI*

## ŞƏHƏR MERİ TİMSAHLA EVLƏNİB



***Meksikanın San-Pedro-Uuamelula şəhərinin meri miniatür timsah - Miqelana Estela del Mar Savaleta Ramires adlı qadın kaymanla evlənib.***

Toy Oaxaka ştatının iki yerli xalqı - çontal və uave tərəfindən qurulan 230 illik ənənənin bir hissəsi olub. Mədəniyyətlərdən birini simvolizə edən timsahla evlənmənin cəmiyyətə firavanlıq gətirəcəyinə inanılır.

Miqelana ağ gəlinlik geyinib, şəhərdə gəzdirilib, rəqs edib və sonda mer onu hətta öpüb.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

### "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişə-yaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbil, nəsilbə-nəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

## ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz. Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.


**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWIFT: LBRTGE22**

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.